SPJ

SOCIAL
PARADIGM
AN INTERNATIONAL JOURNAL OF SOCIAL SCIENCES

*Social Paradigm, 2021 4 (1): 12-17*

# Dervish as an Archetypal Character

*Ülker Yusifova* [1]

*In this article, the image of a dervish will be considered as an archetypal image in folklore. In folklore dervishes are known with their ability – performing supernatural miracles. Many folklorists unequivocally describe dervish as a person who played a key role in the spread of Sufism, one of the sects that spread after the establishment of Islam. When we look at the functions of the dervish in the sagas, we can find the direct and transformed remnants of shamanism in Turkish Sufism, which still exists today. The heroes of love epics overcome difficulties with the help of dervishes, and suddenly become well-known singers and heroes. In this article, the image of the dervish is considered from the point of view of Islam and shamanism.*

***Keywords:*** *dervish, archetype, epic, shamanism, sufism.*

***Received/Makale Geliş Tarihi: 10.04.2021***
***Accepted/Makale Kabul Tarihi: 22.05.2021***

## Giriş

Dərviş sözünün mənası farsca "qapı qapı dolaşan" mənasına gəlsə də, İslam dünyasında "təriqət mənsubu" anlamındadır. Bu söz daha əvvəl vaxtlarda Avestada "driqu" "ehtiyacı olan", "kasıb" mənalarında işlənmişdir. [8]

Folklorşünaslardan bir çoxu dərvişi birmənalı olaraq islam dini yarandıqdan sonra yayılmış təriqətlərdən olan sufizmi yaymaqda əsas rol oynayan şəxslər kimi qələmə verirlər. Beləliklə, bütün həyatını dini təbliğ etməklə keçirən – nəzərə alsaq ki, ilk vaxtlar dərvişlər evlənmirdi və bütün həyatları boyu bir məqsəd uğrunda-dini təbliğ etmək-çalışırdı, onda dərvişlərin nüfuzu digər din xadimlərindən daha çox idi. Füzuli Bayat onların nüfuzunun artmasını belə əlaqələndirir:

"Təbii ki, xalq sufizminin nüfuzu və təsiri gəzərgi dərvişlərin köməyi ilə həyata keçirilirdi. Hz. Əliyə (Türk sufizmi çox az halda silsilələrini Osmana və ya Əbu Bəkrə bağlayırdılar.) oradan da Hz.Məhəmmədə bağlanan təriqət silsilələri bu müsəlman övliyalarını adi din xadimi olan molladan, axunddan, imamdan, hətta müftidən hörmətli tuturdu. İslam dininə qədərki əcdad kultunun türklər arasında geniş yayılması, türklərin hər il əcdadlarına qurbanlar verməsi xalq sufizminin ata-baba kultu üzərində formalaşmasına səbəb oldu." (7, 98)

[1] Baku Slavic University, ulkaryusifsoy88@gmail.com

Ümumiyyətlə, bir çox tərəfləri ilə mistik xüsusiyyətə sahib şamanlıq, xalq sufizmi adı altında öz varlığını qorumağa başlamış, heteredoks İslami cərəyanların və inanışların ortaya çıxmasında önəmli rol oynamışdır. Şaman ünsürlərinin xalq sufizmində dominant mövqe qazanması türk düşüncəsini, həyat tərzini və həyata baxış özəlliyini yaşadan canlı və dinamik olan əski inam sistemi ilə quru, sakit İslam dinini birləşdirməklə həyata keçirildi.

Xalq sufiləri, əski şamanist etiqadları və dini inamları vəhdəti-vücuda dayanan təsəvvüflə birləşdirərək İslam tarixində yeni bir mədəniyyət sintezi yaratdılar və bununla da təsəvvüf tarixində yeni bir səhifə açmış oldular. ”

Dərvişin dastanlardakı funksiyalarına nəzər yetirdikdə şamanlığın birbaşa və transformasiya edilmiş qalıqlarına bu günə qədər yaşayan türk xalq sufizmində sıx şəkildə rast gələ bilərik. Bunu şamanlarda ad qoyma, yol göstərmə, xəstəni sağaltma, buta vermə, uzun yolu qısaltma və s. ilə əlaqələndirmək olar.

Xarici görkəmləri də dərvişləri həm sufiliyə, həm də şamanlığa bənzətmədə bir amildir. "Kitabi-Dədə Qorqud" eposunda "Dirsə xan oğlu Buğac boyu"nda "Qara tonlı dərvişlərə nəzirlər verdim" ifadəsində qara don onların geyimini əks etdirir. Dərvişlərin mənsub olduqları təriqətə görə qara libas geyinməsi vacibdir. Orta Asiya və Anadoluda geniş yayılmış və XVIII yüzildə yaşadığı güman edilən Şeyx Səfanın adı ilə bağlı qələndəri dərvişləri də başlarına Sibir şamanlarının papaqlarına bənzər papaq geyirdilər. B.Ögəl yazır ki, Orta Asiya, Sibirdə şamanların geyindiyi paltarlar hazırlanarkən "heyvan ata" ruhu daha çox nəzərə alınır və "quş, sığır, ayı" donunda hazırlanır. Məsələn, şamanlar yalnız quş donunda havaya uça bilirlər. Bu da şamanın geyindiyi donun, təmsil etdiyi heyvanın şəklinə büründüyü və gücündən yararlandığı mənasını daşıyır.

Təsəvvüfün yayılmasında əvəzedilməz xidmətləri olan dərvişlər türk sufi tarixində yeni məna qazandılar. Əslində "dərviş " sözü ibarət olduğu dal, ra, vav, ye və şin hərflərinin simvolik olaraq ifadə etdiyi dünya, riya, varlıq, yalan və şəhvətdən özünü uzaq tutan insan mənasındadır. "Avesta"da kasıb, dilənçi anlamında işlənsə də, sufizmdə özünü yoxsulluqla imtahan edib dünyanın naz-nemətini Allahda tapma ilə öyünürdülər. Dərviş obrazı yunanlarda kiniklər, ruslarda "nişşi" statusuna malik, daha çox səfil həyat sürən insanlarla əlaqələndirilə bilər. Lakin şərq dünyasında dərviş böyük missiyası olmağı ilə seçilirdi.

Dərvişlərin kəramət göstərmələri, suyun üzərində yerimələri, odda yanmamaları, quşa çevrilib uçmaları, daşdan su çıxartmaları, qayanı aslan kimi minmələri və sürmələri , həkimlik, falçılıq etmələri Altay və Sibir şamanlarının funksiyalarının İslam mədəniyyətinin transformasiyası hesab oluna bilər.

Dastanda qarşımıza çıxan dərvişlər özləri də iki əks qütbü təmsil edir. Daha çox müsbət dərviş qəhrəmanına rast gəlsək də, mənfi qəhrəman tipinə də rast gəlinir. Muxtar Kazımoğlu bunu dərvişlərin mifoloji mənşəyi ilə bağlayır. O qeyd edir ki, folklorda qeyri-adi mənşə xeyiri və şəri təmsil etməsi baxımından iki cürdür. Bir sıra mənfi obrazlar şəri, bir sıra müsbət obrazlarsa xeyiri təmsil edən mifoloji mənşəyə bağlanırlar. Sehirli almadan törəyən qəhrəman, nəzir-niyaz sayəsində doğulan qəhrəman, həmçinin həmin qəhramanların oxşarları mifoloji başlanğıcını, bir qayda olaraq, xeyiri təmsil edən qeyri-adi qüvvələrdən götürürlər.

Türk təfəkkür tərzində müsbət dərviş obrazının olması onun xarici görünüşündə, libasında, ağ tüstüdən çıxmasında və s.- də büruzə verir. Bu türk mifoloji dünyasında ağ işıqla, işıqla bağlıdır.

Ramazan Qafarlı "Azərbaycan mifoloji görüşlərində arxetipik simvollar" adlı məqaləsində bununla bağlı öz fikirlərini bildirir: "Təsəvvürdə canlandırılan bütün müqəddəs varlıqlar işıqla, nurla əlaqəndirilir. İlahi aləmin sakinləri həmişə işıq vasitəsi ilə yerə enirlər. Və işığın ilk ağıla gələn funksiyası xilaskarlığıdır. Qaranlıqda şər ruhların çevrəsində qalan ulu əcdad yalnız havanın işıqlaşması ilə onlardan yaxa qurtarmağı bacarmışdır."( 9,108)

Folklorşünas Cəlal Bəydili şamanizmin islam dini inancına böyük təsirinin olduğunu qeyd etmişdir. "Gerçəkdə türk mentalitetinin əsasında şamanizm dayanır. Ənənəvi bir cəmiyyətdə iki fərqli etnokonfresional ənənə, ayrı-ayrı köklərdən gələn iki dini-mifoloji inanc sistemi açıqca yan-yana yaşaya bilməzdi. Şamanizm türk xalq sufiliynə ciddi şəkildə təsir göstərə bilmişdirsə də, türk tanrıçılığına o, sonradan qarışaraq bu din siteminin praktik yönünü təşkil etmiş, bu yolla türk mədəniyyətinin az qala bütün qatlarına təsir göstərmişdir." (6,108)

Eşq dastanlarının qəhrəmanları dərvişlərin köməyi ilə çətinliklərə qalib gəlir, birdən-birə tanınmış aşığa, ərənə çevrilir. Təbii ki, bu da islam dinində mənkıbələrlə səsləşir. İslam dininin daha çox özünü göstərdiyi folklor ünsürü olan mənkıbələrdə qeyri-adi hər şey Allahın izni ilə baş verir. Beləcə, dərvişin badə içirdikdən sonra haqq aşiqinin sınaqlara çəkilməsi, kəramət göstərməsi eşq dastanlarına övliya mənkıbələrinin təsir göstərdiyindən xəbər verir. Bəzən mənqibələr nağıl və ya efsanə ilə eyniləşdirilir. Lakin bunlar tamamilə fərqli anlayışlardır. Belə ki, nağıl və əfsanələrdən fərqli olaraq mənqibələr bəhs olunan şəxs və hadisələr təxəyyülün məhsulu deyil, gerçək və müqəddəs insanlarla bağlıdır.

Badə içdikdən sonra aşıq birdən-birə bütün ustad aşıqlara qalib gəlir. F.Bayat bu haqda belə deyir: "Eşq dastanlarının qəhrəman tipi olan haqq aşiqi (haqq aşığı) bu cəhətləri ilə qazi, alp ərən tiplərindən fərqlənir. Bu halda o, Yunus Əmrə tipli sufi şairlərinə yaxındır. Əslində buta verilən istər müsəlman, istərsə də tərsa qızların çoxunun Pəri, Nigar, Məhbub (məbud, həmdəm, dost, tapınaq anlamlarını bildirir) adlanmaları eşqin bəşəri deyil, ilahi olduğundan xəbər verir. Haqq aşiqlərinin, onların köməkçilərinin adlarında da təsəvvüf qatı qorunmuşdur: Qərib, Qurbani, Qul Mahmud, Kərəm, Sofi, Saqi, Xoca Əziz, Xacə Abdulla və s." (7,369)

Folklor dərslərindən də xatırladığımız kimi dastanlar üç ustadnamə ilə başlayır. Ustadnamə ustad sözüdür. Adətən ustad "ustad"a, "çoxbilən"ə deyilən ifadədir. Ustadnaməni yalnız dünya halından xəbərdar olan insan söyləyə bilərdi. Bu şeir janrında sufi rəmzlərinin bol olduğu ustadnamələr elə ilk andan dastanın xalq sufi qəhrəmanına – haqq aşiqinə həsr edildiyindən xəbər verir. Ustadnamələr mövzu ilə bağlı giriş olmayıb, yalnız sufi məzmunu ilə bağlı girişdir.

İndi isə dastanlardan nümunələr gətirməklə fikrimizi möhkəmləndirmiş olaq:

"Tahir və Zöhrə" dastanında iki qardaş olur , heç birinin övladı olmur. Dərviş gəlib yaxşı qardaş olan Əhmədə bir alma verir. Əhməd axşama kimi almaya baxır. "Gecənin

bir aləmində gördü ki, evin bir tərəfindən divar yarıldı, həmin alma verən nurani dərviş içəri girdi. Dərviş üzünü Əhməd vəzirə tutub dedi:

Ay Əhməd vəzir, dünən sana verdiyim almanı götürüb gedərsən Hatəm Soltanın hüzuruna . Almanı tən ortasından iki yerə bölərsən . Bir parçasını sən yeyərsən öz arvadın ilə, bir parçasını da Hatəm Soltan öz arvadı ilə yeyər. İnşallah hər ikinizin övladı olar.

Dərviş sözünü qurtarıb qeyb oldu, divar da ağız-ağıza gəlib bitişdi. O saat Əhməd vəzir hövlnak yuxudan ayıldı. Gördü heç kəs yoxdu, ancaq otaq ətir, ənbər qoxusu verir.” (1,275)

Bu dastanda bir çox folklor nümunələrində olduğu kimi dərviş yuxuda gəlir. Yuxu sakral aləmin məhsuludur. Alma alan şəxs yuxudan ayıldıqdan sonra otaqdan ətir qoxusu gəlir. Alma payı ilə doğulan uşaqlar saz-söhbət sahibi olurlar. Tahir haqq aşığı olur.

“Abbas və Gülgəz” dastanında Aşıq Abbas Gülgəz Pərinin arxasınca onu xilas etməyə gedərkən Dəli Becan onu quyuya saldırır. Quyunun ağzına böyük bir daş qoydurur. Ancaq dastançılıq ənənəsində müşayiət olunan “qəhrəmana hami qüvvələrin kömək etməsi” bu dastanda da ortaya çıxır. Haqq aşığının köməyinə Şahi-Mərdan gəlir, onu quyudan xilas edir. Dastanda hami qüvvə “darda qalanların dadına yetən” kimi tanınır. Dastan boyunca həmin obraz Aşıq Abbasa digər çətinliklərdə də köməklik göstərir:

“Abbas yuxudan ayılıb gördü göy əmmaməli, göy atlı bir adam onun yanında durub. Göy atlı dedi:

- Abbas, bu atın rikabından yapış, gözlərini də yum! Havaxt desəm aç, onda açarsan.”(1,145)

Dastanda Abbas uzun yolu bir göz qırpımında qət edir. Dastan boyu digər çətinliklərdə həmin “göy atlı” kömək edir. Şah Abbas Aşıq Abbasın nişanlısı Pəri ilə evlənmək üçün aşığı zəhər quyusuna saldırıb öldürmək istəyir. Ancaq o, bu quyudan da himayəçisi sayəsində sağ çıxır.

“Seydi və Pəri” adlı xalq dastanında Şahi-Mərdan Seydiyə badə verir və onu haqq aşığı edir. Pərini ona buta verir. Pəri də onu yuxuda görür. Bu motiv eyni ilə “Mügüm şah” dastanında özünü göstərir.

“Lətif şah” dastanında Yəmən şəhərində uşağı olmadığı üçün Dərdli şah dedikləri bir şah yaşayır. Dərdli şah ilə Lələ bağda gəzərkən bir nurani dərviş qarşılarına çıxır. Dərviş padşaha alma verir və tapşırır ki, həyat yoldaşı ilə yarı bölüb yesin. Əvvəlcədən deyir ki, bir oğlun olacaq və mən gəlməmiş oğlana ad qoymayın. Bunu deyib yola çıxır. Ancaq padşah oğluna ad verərkən dərvişi gözləmir, özü məclis təşkil edib ad qoymaq istəyirlər. Amma gözlənilmədən yaşıl əbalı, ağsaqqal dərviş gəlib oğlunun adını Lətif şah qoyur və yox olur. Böyüyüb Lətif şah ova çıxır, ov zamanı yatır və ona ad verən dərviş yuxusuna girir, eşq badəsini itirir. Hindistan şahının qızı Mehriban Soltanı buta verir. Lətif şahın ağzından köpük gəlir. (2,186)

Ad qoyma insanların ilkin dünyagörüşünə dayanır. Bu onların həyat tərzi və məişəti ilə əlaqəli idi, ov zamanı, digər təbiət hadisələri qarşısında qəbilə üzvlərinin davranış

tərzi, sərgilədiyi davranışlar onları bir-birindən ayırmağı, fərqləndirməyi və nəticədə onların hərəsinin öz adının olmasını labüd edirdi. Qəbilədə doğulanların ilkin olaraq valideynləri tərəfindən verilən adlarla yaşadığını və yalnız müəyyən şücaət göstərdikləri təqdirdə ada layiq görüldüyü vurğulayan müəllif bunun xüsusən Altay və Yenisey türkdilli qəbilə birləşmələrində yayğındır.

"Qurbani" dastanında Qurbani qurban verməklə doğulduğu üçün ağıllı qoca kişi gəlib Qurbani adını verir. Qurbaninin yuxusuna Gəncə şəhərində Ziyad xanın qızı Pəri xanım girdi. Pəri xanımın əlini Qurbanının əlinə verib, onları bir-birinə buta elədilər. Bu iki aşiq-məşuq yuxuda görüşdülər, alışdılar, verişdilər.

Qurbani bir başı limçə,bir başı çömçə olsa, dərdimi sənə söyləyə bilərəm. Badə içən aşiq üçün içki məkanın da qapısı açıqdır.

Saleh sövdəyər ondan soruşdu:

Oğul, haradan gəlib, haraya gedirsən?

Qurbani dedi:

Əmi, kamdan gəlib, məkana gedirəm

... - Əmi, kan bu dünyada, məkan o dünyada.(5,69)

Qurbaninin yuxusuna Həzrət Əli gəlir və badə verir. Həzrət Əli ona badə verib dedi:

Qurbani, al bu badəni gör haranı görürsən?

... O badəni nuş etdi. Badənin zərbindən onun ağlı başından çıxdı.

Nurani dediyin – nuri mərfətdi,
Mədinə dediyin bizim tərəfdi,
Qurbani der: ağam əsli ərəbdi,
Ağalar ağası, ya Murtuza Əli (5,109)

Dastanlarda eşq badəsini içməkdən imtina edilsə də, bu badə sayəsində onlar öz butalarına sahib olur, haqq aşığına çevrilirlər. Vəcdi yaradan musiqi və oyunla bərabər əski türklərdə təbii ki, içki də önəmli rol oynamışdır. Bu gün ələvi dediyimiz türkmənlərin musiqili, içkili və oyunlu səmahları əski türk dini inaclarının müsəlmanlıqda yaşadılmasıdır. Ələvi-bektaşi və taxtaçılarda içkilərin bərabər şərtlər altında, toplu halda içilməsi əski şamanist türklərin araka içmə mərasimini xatırladır.

Bu işdə dərviş obrazına həm islam, həm də şamanizm nöqteyi-nəzərindən baxılmışdır.

**İstinadlar**

Azərbaycan dastanları V cilddə. I cild. Bakı 2004
Azərbaycan dastanları V cilddə. II cild. Bakı 2004
Azərbaycan dastanları V cilddə. III cild. Bakı 2004
Azərbaycan dastanları V cilddə. IV cild. Bakı 2004
Azərbaycan dastanları V cilddə. V cild. Bakı 2004

Cəlal Bəydili. İstiqbal xalq ədəbiyyatınındır. Bakı 2015
Füzuli Bayat. Türk təkkə (təsəvvüf) ədəbiyyatı. Bakı, Elm və Təhsil.2011, 440 s.
https://ahdictionary.com/word/search.html?q=dervish
Ramazan Qafarlı "Azərbaycan mifoloji görüşlərində arxetipik simvollar". Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiq-14. B. 2004